# İnsan ömrünün varidatı

*Həyat heç kəs üçün əbədi deyil. Bu gün yaşanılan ömrün nəinki sabahı, heç sonrakı dəqiqəsinin belə necə olacağını uca Tanrıdan başqa heç kəs bilə bilməz. Həyatda heç nə də əbədi deyil. İnsan dünyasını dəyişərkən özü ilə heç nə apara bilməz;*





*nə cah-cəlal, var-dövlət, geyim, bir sözlə, daşınan və daşınmaz əmlak. İnsana yalnız onun əməlləri qalar, əməlləri ilə xatırlanar, "yaşayar".*

*Türkiyədə baş verən zəlzələ faktiki və ibrətamiz bir misaldır. İnsanların təbii fəlakət qarşısında acizliyi ölümə məhkumluqdur. Ancaq Allahın izniylə ən ağır fəlakətdə belə insanların bəziləri yenidən həyat qazana bilmişdilər. Onları həyata qaytaran isə insanların içdən gələn bir xeyirxahlıq hissinin olmasıdır. Xeyirxahlıq bizlərə ta qədimdən babalardan qalan bir mirasdır. Hər kəs də öz soykökünə məxsusluğu ilə seçilərək xeyirxah əməllərin carçısı ola bilər.*

*Zəlzələ nəticəsində yıxılan evlər, insanların yıxılan binaların tör-töküntüləri altında qalması, onların əzizlərinin müşkül baxışları, acı göz yaşları, bir sözlə, düşdüyü bu çətin vəziyyət Azərbaycan xalqını da sarsıtmışdı. İgid həmvətənlərimiz onlara kömək etmək üçün hər vəchlə çalışırdılar; həm maddi əşyalarla, həm mənəvi, həm də cismani.*

*Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Qəbələ rayon şöbəsinin Mülki Müdafiə qoşunlarının N saylı hərbi hissəsindən könüllü olaraq bir qrup sürücü və feldşer Türkiyəyə kömək etmək üçün ərizə yazdılar. Fevral ayının 6-da onlar Türkiyəyə yola düşdülər, ayın 7-də Kahramanmaraşda oldular.*

*Qəbələdən 2 gənc, Zarağan kənd sakini Ariz Zeynalov və Mirzəbəyli kənd sakini Zahir Kərimov həkim briqadası ilə Bakıdan Türkiyəyə gedərək dağılmış binaların, insanların acı dolu həyatının canlı şahidi oldular...*

*Bir neçə gündür ki, onlar ölkəmizə qayıtmış və öz işlərinə davam edirlər.*

*Hər iki gənc bu günlərdə dəvətimizlə redaksiyamızın qonağı olmuşlar. Onlarla müsahibəmizi oxucularımıza təqdim edirik:*

**Sual:** - İlk növbədə sizi oxucularımıza təqdim etmək istərdik. Sizi tanıya bilərikmi?

**Zahir Kərimov** - Kərimov Zahir Tahir oğlu, Mirzəbəyli kəndində 1988-ci ilin fevral ayında doğulmuşam. Atam Kərimov Tahir Teymur oğlu dünyasını dəyişmişdir. Anam Kərimova Gülnaz Alı qızı evdar xanımdır. Ailədə 3 qardaşıq. Vüqar, Əfsun və mən. Mirzəbəyli kənd orta məktəbində təhsilimi başa vurduqdan sonra 2005 - 2008-ci illərdə Gəncə və Tərtərdə artilleriya üzrə həqiqi hərbi xidmətdə olmuşam. Mingəçevir Tibb Kollecində müalicə işi ixtisasına yiyələnmişəm. Bir müddət Qəbələ Rayon Mərkəzi Xəstəxanasında feldşer işləmişəm. 2012-ci ilin mart ayında FHN-nin MMQ-da tibb xidməti üzrə feldşer vəzifəsində xidmət edirəm.

Ailəliyəm, 2 övladım var. Övladlarım məktəblidirlər.

**Ariz Zeynalov** - 1989-cu ildə Zarağan kəndində doğulmuşam. Atam Zeynalov Aydın, anam Zeynalova Sevinc Zarağan kəndində yaşayırlar. Ailədə 3 övladıq; 1 bacı, 2 qardaş. Orta təhsilimi başa vurduqdan sonra ali məktəbə qəbul olmasam da topladığım nəticə ilə Mingəçevir Tibb Kollecinin müalicə işi fakültəsində təhsilimi davam etdirdim. Sonra 1 il Qəbələ Rayon Mərkəzi Xəstəxanasında feldşer işlədim. 2007 - 2009-cu illərdə Ağstafada artilleriya üzrə həqiqi hərbi xidmətdə olmuşam. 2012-ci ildən etibarən Zahir Kərimovla birgə işləyirəm. Ailəliyəm, 1 övladım var. Övladım azyaşlıdır.

**Sual:** - Bu işə başlayarkən peşənizin çətin və məsuliyyətli olduğunu bilirdinizmi?

**Ariz** - Əlbəttə. İşin çətinliyini bilib seçmişdik. İnsanlara xidmət etmək, onların həyatında baş verən fövqəladə hallardan onları həyata adaptasiya etmək, insanlara aid olanları qorumaq üçün bu məsuliyyətli işə başladıq.

**Zahir** - Həyatda insan öz peşəsini sevərsə, onun çətinliyi ona təsir etməz. Biz xalqımıza xidmət edirik. Baş verən fövqəladə hallarda da daima insanların sağlamlığı keşiyindəyik. Xidmət dövründə təkcə öz rayonumuz deyil, ölkəmizin bütün bölgələrində baş verən yanğın, zəlzələ və s. hadisələrdə zərərçəkənlərin yanında olmuşuq.

**Sual:** - Xeyirxahlığı necə başa düşürsünüz?

**Ariz** - Zahir də, mən də, eləcə də bizimlə birgə işləyən hər kəsdə xeyirxahlıq hissi çox güclüdür. Çünki bu işin əsas məramı bu. Xeyirxahlıq xalqımıza xas olan bir xüsusiyyətdir. Biz də bu xalqın övladları kimi bu missiyanın davamçılarıyıq.

**Sual:** - Türkiyədə baş verən hadisə; o dağıntı, o insanlar sizə necə təsir bağışladı?

**Ariz** - 6 fevral 2023-cü il tarixdə qardaş Türkiyə Respublikasında böyük dağıntılara və kütləvi insan tələfatına səbəb olmuş zəlzələdən zərər çəkmiş qardaş və bacılarımızın hər birinin acısı bizim acımız. Bunu onlar bizi qarşılayarkən və azərbaycanlı olduğumuzu bilərkən boynumuza sarılaraq göz yaşlarını saxlaya bilmədiyi səhnələr daha aydın hiss etdirirdi. Doğma bildiyimiz insanların acısı bizi əlbəttə çox sarsıtdı. Əzizlərini axtaran insanların çəkdiyi iztirablar bizimki idi. Biz onların xidmətində idik və hər vəchlə onlara kömək etməyə çalışırdıq.

**Zahir** - Gördüyümüz o səhnələrə, görüntülərə onu deyə bilərik ki, bunlar sözün bitdiyi bir yer idi...

**Sual:** - Xilaskar adının böyüklüyünü necə izah etmək olar?

**Zahir** - İnsanların çox, amma çox çətinliklə dağıntılar arasından çıxarılması, onların həyata qaytarılması xilaskarlığın ən ali adı, ən böyük qiymətidir.

**Sual:** - Zəlzələ nəyi aşkarladı və bu aşkarlıq hiss olunurdumu?

**Ariz** - Baş verən bu faciəli hadisə binaların tikintisində keyfiyyətsizliyi, tikinti şirkətlərinin bəzilərinin laqeydliyini, məsuliyyətsizliyini, insan amilinin bəzi şirkətlər üçün önəmsizləşdirilməsini aşkarladı.

**Zahir** - Ancaq bununla bərabər insanlığı, xeyirxahlığı, o günün dostlarını da bu faciə təkrar aşkarladı, tanıtdı.

**Sual:** - Əgər təkrar nə isə baş verərsə... yenə insanların köməyinə gedərsinizmi? Qarşılaşdığınız çətinliklər sizə mənfi təsir edirdimi?

**Zahir** - Allah dünyamızı təbii fəlakətlərdən qorusun! Amma biz insanlara xidmət edirik. Və hər zaman müsəlləh əsgər kimi hazırlıqlıyıq! Qarşılaşdığımız çətinliklər insanların üzündəki xoş təbəssümlə unudulur.

**Ariz** - Biz azərbaycanlıyıq! Qəhrəmanlıq soykökü olan bir insan xalqına xidmətə, insanlara xidmətə həmişə hazır olmalıdır.

**Sual:** - Qarşılıq və ya kiminsə "sağ ol"unu gözləyirsinizmi?

**Ariz** - Bizim ən böyük "sağ ol"umuz insanların sağlamlığı və həyatda qalmasıdır. Onların əzizlərinin sevinc hissi bizə verilən qarşılıqdır!

**Zahir** - İnsanlıq qarşılıq və "sağ ol" üçün deyildir. İnsanlıq vicdanın diktəsi ilə həyata keçirilən bir missiyadırsa, bu missiyada biz də varıqsa, bu bizim işimizə verilən ən böyük qiymətdir!

*- Müsahibəyə görə çox sağ olun!*

**Bibixanım İSAYEVA.**


QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2023-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## Ümumdünya Mülki Müdafiə günü

1 Mart - Ümumdünya Mülki Müdafiə Günüdür. Beynəlxalq Mülki Müdafiə Təşkilatı Baş Məclisinin qərarı ilə 1972-ci ildən etibarən hər il mart ayının 1-i bütün ölkələrdə Ümumdünya Mülki Müdafiə günü kimi qeyd edilir. Azərbaycan Respublikası 1993-cü ildə təşkilatın üzvlüyünə qəbul edildiyi üçün hər il təşkilatın keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir. Məlum olduğu kimi, rayonumuz dağlıq ərazi olmaqla seysmik zonada yerləşir. Eyni zamanda rayon ərazisində onlarla dağ çayları, çox geniş ərazidə meşələr vatdır ki, bu çaylarda yaz, payız aylarında yağıntıların artması ilə əlaqədar sel, subasma hadisələri, meşələrdə yanğın hadisələrinin baş verməsi qaçılmazdır. Bu qəbildən baş verə biləcək təhlükələri minimum itki və zərərlə yekunlaşdırmaq üçün əhali arasında təbii fəlakət və fövqəladə hallar zamanı xilasetmə işləri ilə bağlı maarifləndirmə tədbirlərinin, yığıncaqların, praktik məşqələlərin keçirilməsi, sərgilərin təşkili, təhsil müəssisələrində hərbi idman oyunlarının keçirilməsi zəruridir.

**Şükür TAHİROV.**


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## İTMİŞDİR

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Mənzil-Kommunal Təsərrüfatı Komitəsinin Baş Dövlət texnik İnventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı idarəsi tərəfindən 28 aprel 1999-cu il tarixdə Qəbələ şəhər sakini **Əzizov İntiqam Telman oğluna** məxsus I nömrəli reyestr kitabının 5-ci səhifəsində, 1/20 reyestr nömrəsilə qeydə alınmış, inventar nömrəsi 80 olan **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Böyük Pirəli kənd sakini **Osmanova Jalə Yavər qızına** məxsus 99 CL 387 Opel Astra markalı minik maşınının **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Dizayner Rais Rəşidov

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

Tiraj 1470